*Milli Kitabxana*



*Milli Kitabxana*

# MİRZƏ ŞƏFİ VAZEH

# NƏĞMƏLƏR

"ŞƏRQ-QƏRB"
BAKI–2004

*Milli Kitabxana*

*Bu kitab “**Mirzə Şəfi Vazeh**. Nəğmələr” (Bakı, Uşaqgəncnəşr, 1961) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Alman dilindən
tərcümə edəni: Aslan Aslanov

Tərtib edəni və redaktoru: Firuz Sadıqzadə

**894.3611 - dc 21**
**AZE**

Mirzə Şəfi Vazeh. Nəğmələr. Bakı, “Şərq-Qərb”, 2004, 96 səh.

Böyük Azərbaycan şairi və mütəfəkkiri Mirzə Şəfi Vazehin əldə olan qəzəl, müxəmməs və rübailəri onun nə qədər zəngin yaradıcılıq təcrübəsinə və yüksək istedada malik olduğunu göstərir.

Bu kitabda Mirzə Şəfinin doğma ana dilindəki şeirləri, farsca yazdığı şeirlərinin orijinalı və sətri tərcümələri, almanca şeirlərinin bədii tərcümələri verilmişdir.

ISBN 9952-418-23-7

© “ŞƏRQ-QƏRB”, 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# TƏRCÜMƏÇİDƏN

Mirzə Şəfi Vazeh dünya xalqlarının ən çox tanıdığı şairlərdən biridir. Onun bədii yaradıcılığı ilə dünyanın ən görkəmli sənətkarları maraqlanmışlar. "Ədəbiyyat və incəsənət" qəzetinin 1960-cı il 3 sentyabr tarixli sayında Mirzə Şəfi haqqında geniş qeydləri ilə çıxış edən macar ədəbiyyatşünası Dyerd Radonun məqaləsi bu marağın nəinki azaldığını, bəlkə daha da artdığını sübut edir. İstismar, zülm və əsarətin hakim olduğu cəmiyyətdə yaşayan əsil şairlərin hər birinin mütləq bir faciəsi olur. Xaqanini, Nəsimini, Vaqifi, Hadini, Sabiri, Puşkini və Lermontovu xatırlamaq kifayətdir. Mirzə Şəfinin faciəsi isə ikitərəfli olmuşdur.

Ömrünü çətinlik və məhrumiyyətlə keçirən şairin yaradıcılıq taleyi də faciəlidir. Başqa xalqların dilində yüzlərlə şeri səslənən Mirzə Şəfinin indiyə kimi ana dilində cüzi bir qisim şeri məlumdur. Bu şeirləri tapıb üzə çıxardıqlarına görə, heç şübhəsiz, görkəmli ədəbiyyatşünaslarımız S.Mümtaz və Ə.Ə.Seyidzadəyə minnətdar olmalıyıq. Lakin bununla belə bu sahədə çox az iş görülmüşdür.

M.Şəfi şeirlərinin Azərbaycan dilinə tərcüməsi

hələlik böyük şairin ədəbi irsini müəyyən cəhətləri ilə də olsa oxucularımızı tanış etmək məqsədini izləyir.

1879-cu ildə Peterburqda çıxan "Jivopisnoe obozrenie" qəzeti öz nömrələrindən birində yazmışdı: "Mirzə Şəfi şeirləri hətta tatar (Azərbaycan) dilinə tərcümə edilmişdir".

Eyni fikri 13 il sonra "Das maqazin fur literatur" qəzeti də yazmışdır. Bunu yazanların, məsələnin əsil mahiyyətindən xəbərdar olub-olmamalarını bir kənara qoysaq, məqsədləri əsər müəllifinin Bodenştedt olduğunu göstərmək idi.

İndi Mirzə Şəfinin bəzi şeirlərini almancadan Azərbaycan dilinə tərcümə etməklə biz vaxtilə deyilmiş bu yalanı bu gün doğruya çıxarmırıqmı? Qətiyyən, yox!

Çünki artıq Bodenştedtin plagiatorluğu çoxlu təkzibedilməz dəlillər əsasında sübut edilmişdir. Əldə olan bəzi orijinal alman tərcüməsi ilə tutuşdurulması, Bodenştedtin Mirzə Şəfi şeirlərini əsasən düzgün və poetik bir dillə tərcümə etdiyini göstərir. Onun bədii tərcümə sahəsində təcrübəsi şübhəsiz az deyildi. Bu barədə Puşkin, Lermontov poeziyasının yaxşı tərcüməçisi kimi tanınan Bodenştedt haqqında A.I.Gertsenin fikirləri ilə tanış olmaq kifayətdir. Lakin onun tərcümələri, heç şübhəsiz, bir sıra əlavə və təhriflərdən də azad deyil. "Mirzə Şəfi nəğmələri", "Mirzə Şəfi irsindən" kitablarında Xəyyam, Hafiz, Füzuli şeirlərindən parçalar da tapmaq mümkündür.

Bu bizi, heç də geniş oxucu kütləsini Mirzə Şəfinin irsi ilə tanış etmək arzusundan çəkindirməməlidir. Oxucularımıznəzəri kitablardan Bodenştedtin plagiatorluğu haqqında kifayət qədər inandırıcı məlumat almışlar.[1] Lakin Bodenştedtin öz adına çıxmaq istədiyi şeirlər indiyə kimi bir küll halında şairin ana dilinə tərcümə olunub nəşr edilməmişdir.

Bizcə, şeirlərin alman dilindən tərcüməsini bu cəhətdən gələcəkdə də (hələlik orijinal şeirlərin özü tapılana qədər) davam etdirmək lazım gələcəkdir.

Şeirləri almancadan tərcümə edərkən biz o dövrün Şərq şeri üslubuna xas ibarə və təşbehlərdən, ərəb, fars tərkiblərindən və sairədən istifadə edib oxucuda illüziya yaratmaq yolu ilə getmək istəmədik. Lakin Mirzə Şəfini üslub nöqteyi-nəzərindən müasirləşdirmək fikrindən də uzağıq.

Oxucu bu kitabçadakı şeirlərin alman dilindən tərcümə olunduğunu bilir.

Şairin əlimizdə olan və həmin kitabda verilən Azərbaycan, fars dillərində olan bir neçə şeri, qəzəl və müxəmməsi, rübai və beytləri isə onun üslubunun aparıcı meyli haqqında tam təsəvvür yaratmaq üçün azdır.

---

[1] Bax: A.A.Seid-zade, “Mirza Şafi ili Bodenştedt?”, Izdatelğstvo AQU, Baku, 1940.

Şübhəsiz, tərcümə etdiyimiz şeirlərin gələcəkdə əsli tapıldıqda, bunlar orijinala nisbətən solğun görünəcəkdir.

Bizim tərcümələr yəqin ki, müəyyən qüsurlardan da, azad deyildir. Biz öz xeyirxah məsləhətləri və ağıllı tənqidi qeydləri ilə işimizə kömək edəcək şeirsevərlərə qabaqcadan təşəkkür edirik. Qoy bu kiçik təşəbbüs böyük şairimizin irsini əməli şəkildə aşkara çıxarmaq sahəsində çoxdan bəri dayanmış axtarışları canlandırmağa və sükut buzunu qırmağa kömək etsin.

*Aslan Aslanov*

# MİRZƏ ŞƏFİ VAZEH

Mirzə Şəfi Vazeh təqribən 1792-ci ildə Gəncədə doğulmuşdur.

Mirzə Şəfinin atası Kərbəlayı Sadıq 1804-cü ilə qədər Gəncə xanının memarı olmuşdur. 1804-cü ildə Sisianovun komandanlıq etdiyi çar ordusu Gəncə şəhərini işğal etdikdən sonra Gəncə xanlığına son qoyuldu. Bu, xanın tikinti işləri ilə məşğul olan Kərbəlayı Sadığı yeganə və son gəlir mənbəyindən məhrum etdi, onun maddi vəziyyətinə ciddi təsir göstərdi.

Kərbəlayı Sadığın iki oğlu var idi. Böyük oğlunun adı Əbdüləli, kiçiyinkinin isə Şəfi idi. Atası Əbdüləlinin öz sənətini davam etdirmək üçün şagirdliyə vermiş Şəfinin isə gələcəkdə ruhani rütbəsi almaq məqsədi ilə Gəncə mədrəsəsinə qoymuşdu.

Şəfi mədrəsədə ərəb, fars dillərini və şəriyyət elmlərini öyrənməklə bərabər, o vaxtlar geniş yayılmış olan Şərq poeziyası nümunələri ilə də tanış olur. Şəfi hüsnxət dərslərinə xüsusi maraq göstərir. Şəfi hələ mədrəsədə oxuduğu zaman atası vəfat edir.

Dövrünün mədəni adamlarından olan Hacı Abdullanın Təbrizdən Gəncəyə qayıtması və gənc Şəfini öz himayəsi altına alması, gələcək şairin inkişafına mühüm təsir göstərir. Gəncənin molla və axundları Hacı Abdullaya düşmən münasibət bəsləyirdilər. Çünki Hacı Abdulla onlarla mü-

naqişəyə girişir, dini baxış və uydurmalarının cəfəngiyat olduğunu göstərirdi. Təlim aldığı mollalara qarşı çox soyuq və etinasız olan gənc Şəfi, onu himayəsinə götürən Hacı Abdullaya dərin məhəbbət bəsləyirdi. Hacı Abdulla isə gələcək mütəfəkkir və şairdə elm və mədəniyyətə böyük həvəs oyadırdı. Bütün bunlar mollaların diqqətini cəlb etməyə bilməzdi. Şəfi, nəhayət bir gün gözünü açıb özünü mədrəsədən kənarda gördü.

Hacı Abdullanın məsləhəti ilə Şəfi məğlub olmuş Cavad xanın qızı Püstə xanımın yanında binagüzarlıq və yazı-pozu işlərini idarə etmək üçün qulluğa götürülür. Bu zamandan Şəfi Mirzə Şəfi deyə tanınır.

1826-cı ildə İranla Rusiya arasında müharibə başlayır.

İranlılar Gəncəni işğal edirlər. Cavad xanın oğlu Uğurlu xanın itaətinə verilən Gəncə şəhərində onlar ancaq üç ay qala bilirlər. İranlıların Şəmkir altında məğlubiyyəti və Gəncədən sıxışdırılıb çıxarılmasından sonra Uğurlu xan bacısı Püstə xanımı da götürüb İrana qaçır.

Beləliklə, Mirzə Şəfi yenidən məscidə qayıdır, ücrələrin birində müxtəlif kitabların üzünü köçürməklə məşğul olur ki, bir təhər güzəran keçirsin. Mirzə Şəfinin vəziyyəti ona bu vaxta qədər köməklik edən Hacı Abdullanın 1831-ci ildə vəfat etməsi ilə daha da çətinləşir. Onsuz da az gəlir gətirən gözəl dəst-xətti tezliklə ona gərəksiz olur. İranda artıq litoqrafiyadan istifadə olunduğu üçün kitabları əl ilə köçürməyə daha ehtiyac qalmırdı.

Mirzə Şəfi ərəb və fars dillərindən fərdi dərs verməklə dolanmağa məcbur olur.

Otuzuncu illərin əvvəllərində Mirzə Şəfi gənc Mirzə Fətəli Axundov ilə tanış olur və ona öz görüşləri ilə ciddi, xeyirxah təsir göstərir. Özünün mənəvi həyatında böyük təbəddülat yaradan bu həyəcanlı görüşləri haqqında Mirzə Fətəli Axundov ətraflı bəhs etmişdir.

Böyük mütəfəkkir öz tərcümeyi-halında yazır: "Gəncə məscidinin hücrələrindən birində bu vilayət əhalisindən Mirzə Şəfi adlı birisi yaşayırdı. Bu adam növbənöv elmlərdən başqa, nəstəliq yazısını da çox yaxşı yazırdı.

Bu həmən Mirzə Şəfidir ki, Almaniya məmləkətində onun həyatı və farsca şeirdə malik olduğu fəziləti haqqında məlumat yazılıbdır. Mən atalığımın buyruğu üzrə hər gün bu şəxsin yanına gedib nəstəliq yazısının məşqini edirdim. Belə ki, get-gedə mənimlə bu möhtərəm şəxsin arasında ülfət və ünsiyyət hasil oldu. Bir gün bu möhtərəm şəxs məndən soruşdu: "Mirzə Fətəli, elmləri təhsil etməkdə nədir?" Cavab verdim ki, ruhani olmaq istəyirəm.

Dedi: "Sən də onlar kimi riyakar və şarlatanmı olmaq istəyirsən?". Təəccüb və heyrət etdim ki, bu nə sözdür.

Mirzə Şəfi mənim halıma baxıb dedi: "Mirzə Fətəli, öz həyatını bu qaragüruhun içərisində puç etmə, başqa bir məşğuliyyət qəbul et!"

Onun ruhaniliyə nifrət etməsinin səbəbini soruşduqda, o günə qədər mənim üçün örtülü qalan mətləbləri aç-

mağa başladı. Atalığımın Həccdən qayıtmasına qədər Mirzə Şəfi bütün mətalibi-irfaniyyəni mənə təlqin etdi və gözümün qabağından qəflət pərdəsini qaldırdı”.[1]

Göründüyü kimi, məhz Mirzə Şəfinin təsiri ilə M.F.Axundov ruhani olmaq məqsədindən imtina etmiş və 1832-ci ildə Nuxa (Şəki) qəza məktəbinə daxil olmuşdur.

1840-cı ildə M.F.Axundov Tiflis qəza məktəbində Şərq dilləri üzrə müəllim işləyirdi. Həmin il o, bu vəzifədən çıxarkən öz yerinə Mirzə Şəfini məsləhət görmüşdür.

Qəza məktəbinin Azərbaycan dili müəllimi vəzifəsini tutmaq üçün xüsusi imtahan verdikdən sonra Mirzə Şəfi bu vəzifəyə qəbul edilmiş, uzun zaman Tiflisdə yaşamışdır.

Mirzə Şəfi qəza məktəbində işləməklə yanaşı, fərdi dərs verməklə də məşğul idi. Artıq Gəncə molla və ruhanilərinin hücumundan uzaq olan şair burada dövrünün qabaqcıl adamları ilə daha yaxından tanış olmaq imkanı əldə edir. O, Axundov, Bakıxanov, Budaqov və başqaları ilə yaxın dostluq əlaqəsinə girir. Mirzə Şəfi alman səyyahı, rus və Şərq poeziyasının tərcüməçisi Fridrix Bodenştedtlə də Tiflisdə görüşmüşdür.

Bodenştedt Tiflisdə ikən Azərbaycan və fars dillərini öyrənməyə başlamışdı. Mirzə Şəfi ona dərs deyirdi. Mirzə Şəfi dərs zamanı ona Firdovsi, Xəyyam, Sədi, Hafiz və Füzulinin şeirləridən oxuyar, daha çox öz şeirlərini yazdırardı.

---

[1] Azərbaycan EA yanında Respublika Əlyazmaları Fondu, inv. 490 (“Bioqrafiə Kolonel Mirza Fatali Axundzade”).

1

Bodenştedt yazır: "Həftədə üç dəfə dərs keçirdik, dərsdə həmçinin Mirzə Şəfinin digər tələbələri iştirak edirdilər. Axırda "Divan" başlanırdı. Mirzə Şəfi öz nəğmələrini oxuyur və bizə izah edirdi. Həmin nəğmələrin çox böyük bir hissəsi, demək olar ki, mənim gözlərimin önündə yaranmışdır"[1].

Bir dəfə "Divani-hikmətdən"[2] sonra bağda Mirzə Şəfi ilə gəzməyə çıxan Bodenştedt onun bədahətən şeir söyləməsinə öz təəccübünü bildirib deyir: "Ey mənim müdrik müəllimim, necə olur ki, sən öz nəğmələrini bu qədər tez qoşursan? Mirzə Şəfi oradaca topladığı güllərdən bir dəstə bağlayıb, Bodenştedtə verir və deyir: "Budur, bax, bu gül dəstəsini mən bir an içində düzəltdim.

Halbuki, bu güllər bir anda əmələ gəlib açılmamışdır, mənim şeirlərim də bunun kimi"[3].

Bodenştedt yazır ki, mən səyahətdən qayıtdıqdan sonra Mirzə Şəfi özünün şeirlər külliyyatını mənə bağışladı.

O, Tiflisdən gedərkən apardığı dəftərlərdən bəhs edərək bunu da göstərir ki, həmin dəftərlər şairin tatar (Azərbaycan) və fars dillərində yazdığı nəğmələrdən ibarət idi.[4]

---

[1]Tausend und ein Tag im Orient. V., 1850.
[2] Mirzə Şəfinin Tiflisdə təşkil etdiyi ədəbi məclis.
[3] Tausend und ein Tag im Orient. V., 1850, səh. 273.
[4] Aus dem Nachlasse Mirze Schaffys, Berlin, 1875, səh. 206.

XX əsr rus və Azərbaycan ədəbiyyatşünaslığında müəyyən edilmişdir ki, Almaniyada Bodenştedt tərəfindən

"Mirzə Şəfi nəğmələri" və "Mirzə Şəfi irsindən" adlı kitablarda dərc edilən və XIX əsirin 70-ci illərində Mirzə Şəfinin ölümündən sonra Bodenştedtin öz adına çıxmaq istədiyi şeirlərin demək olar ki, tam əksəriyyəti Mirzə Şəfiyə məxsusdur. Qeyd etmək lazımdır ki, Mirzə Şəfi haqqında həqiqətin meydana çıxarılması, onun bədii yaradıcılığının təhlili, ictimai-fəlsəfi fikirlərinin öyrənilməsi sahəsində ədəbiyyatşünaslardan Ə.Ə.Seyidzadə, S.Mümtaz, E.Enikolopov, professorlarımızdan M.Rəfili, F.Qasımzadə, H.Hüseynov, M.Qasımov və akademik

A.Makovelskinin xüsusi xidmətləri olmuşdur.

"Mirzə Şəfi nəğmələri"nin Almaniyada ilk çapı böyük müvəffəqiyyətlə qarşılanmışdır. Ilk dəfə 1851-ci ildə nəşr edilən həmin şeirlərin 1893-cü il 145-ci, 1924-cü ildə isə 170-ci nəşri çapdan çıxmışdı. Indiyə qədər həmin kitab 300 dəfədən artıq təkrar nəşr edilmişdir.

"Mirzə Şəfi nəğmələri" fransız, ingilis, italyan, Isveç, holland, Danimarka, ispan, portuqal, rus, çex, macar, yəhudi və s. dillərdə dəfələrlə çap olunub geniş yayılmışdır. Buradan da Bodenştedtin özünü bu şeirlərin tərcüməçisi kimi deyil, müəllifi kimi qələmə verməsinin səbəbi aydındır.

Bodenştedt 1847-ci ildə Tiflisi tərk edir. Bundan bir il sonra, yəni 1848-ci ildə Mirzə Şəfi də Tiflisdən köçüb Gəncəyə gəlir. O, burada qəza məktəbində Azərbaycan

dili müəllimi vəzifəsində işləyir. Lakin Mirzə Şəfi iki ildən sonra yenidən Tiflisə qayıdır, Tiflis gimnaziyasında Azərbaycan və fars dillərindən dərs deyir. Ölümündən bir az əvvəl Mirzə Şəfi həmin gimnaziyanın müəllimi İ.İ.Qriqoryevlə birlikdə Azərbaycan dilini öyrənənlər üçün dərslik yazıb hazırlamışdır.

Mirzə Şəfi 1852-ci ildə vəfat etmişdir. O, professor M.Rəfilinin yazdığı kimi, "...tənha, unudulmuş, soyulub talan edilmiş bir halda vəfat etdi. Lakin, onun bəzi şeirləri xalqın hafizəsində, həmçinin əlyazmaları şəklində qalaraq, Avropa dillərinə tərcümə edilərək şairə dünya şöhrəti qazandırdı"[1].

***

Mirzə Şəfinin ədəbi yaradıcılığını, onun ictimai-siyasi və fəlsəfi görüşlərindən ayrı təsəvvür etmək olmaz.

Şairin ictimai-fəlsəfi görüşlərinin onun bədii yaradıcılığında nə qədər kəskin ifadə olunduğunu təsəvvür etmək üçün əldə olan iki misralı orijinal bir şerini misal çəkmək kifayətdir. Bu şeirdə şairin din və din xadimlərinin iç üzünü böyük bir məharət və cəsarətlə açıb ifşa etməsinə heyran qalmamaq olmur. O, üzünü mollalara tutub deyir:

---

[1] M.Rafili. "Mirza Şafi v mirovoy literature", Azerneşr, Baku, 1958, str.107.

Min ev yıxıb, tikirsiniz bir boş minarə,
Ərşə çıxıb qonaq gedin pərvərdigarə!

Mirzə Şəfinin vaxtı ilə ədəbiyyatşünas Salman Mümtaz tərəfindən əldə edilən orijinal şeirlərinin əsas hissəsini məhəbbət lirikası təşkil edir. Mirzə Şəfinin əldə olan qəzəl, müxəmməs və rübailəri onun nə qədər zəngin yaradıcılıq təcrübəsinə və yüksək istedada malik olduğunu göstərir. Bu şeirlər klassik poeziyanın ən gözəl nümunələri hesab oluna bilər. Lakin, bunlar şairin məhəbbət lirikası, dil və üslub xüsusiyyətlərinin bəzi mühüm cəhətləri haqqında müəyyən təsəvvür yaratmağa kömək etsə də, ümumi dünyagörüşü, ictimai-siyasi və fəlsəfi əqidəsini aydınlaşdırmaq üçün elə zəngin məlumat vermir.

Buna görə də həmin məsələləri aydınlaşdırmaq məqsədilə "Mirzə Şəfi nəğmələri" və xüsusən "Mirzə Şəfi irsindən" adlı kitablara müraciət etmək lazımdır. Bodenştedtin tərcümə zamanı şairin şeirlərini bəzən forma və ya məzmun cəhətdən nə qədər təhrif etmiş olduğunu nəzərdə tutsaq belə, biz bu şeirlərə müraciət etməli olacağıq. Mirzə Şəfinin müəlliflik hüququnu sonralar inkar edən Bodenştedt, özü də boynuna alırdı ki, həmin şeirlərdə şərh edilən fikirlər bütünlüklə Mirzə Şəfiyə məxsusdur.[1]

[1] Aus dem Nachlasse Mirza Schaffys, Nenes siederbuch mit prolog und erldnterndem Nachtrag von Fridrich Bodenstedt, Berlin. 1881, səh. 218.

Mirzə Şəfinin bu əsərlərində feodal quruluşunun mənfi cəhətlərinin kəskin tənqidi mühüm yer tutur. O öz əsrinin bir çox demokratik ruhlu mütəfəkkir şairləri kimi bu tənqidi əxlaq və etika mövqeyindən edir.

Xoşbəxtliyə can atmaq təşəbbüsü - Mirzə Şəfi şeirlərində irəli sürülən etik fikirlərin əsas amilidir. Şairin diqqət mərkəzində duran yalnız insandır – bütün iztirab və sevinci, xoşbəxtlik və bədbəxtliyi, məhəbbət və nifrəti ilə birlikdə götürülən insan. Xoşbəxtlik uzaqda deyil.

Lakin, onu görmək, əldə etmək lazımdır! Dindar fırıldaqçılar isə, var qüvvələri ilə buna maneçilik törədir. Çünki onlar yaxşı bilirlər ki, xoşbəxtliyə çatan kəs onların məscidinə ayaq basmaz. Şair göstərir ki, xalqın böyük bir kütləsi savadsızdır. Buna görə də, onların gözünü açmaq lazımdır.

Xalq ancaq öz bədbəxtliyini dərk etdikdən sonra bədbəxtlikdən xilas olmaq uğrunda mübarizə apara bilər.

Mirzə Şəfiyə görə, bu sahədə əsas vasitə xalqı maarifləndirməkdir.

Bu işdə Mirzə Şəfi poeziyanın roluna böyük qiymət verir.

Mirzə Şəfi poeziyanın ictimai rolunu unudan, qulağı oxşayan boş məzmunsuz qafiyəpərdazlıqla məşğul olan, ömrü boyu güldən, bülbüldən, hicran və vüsaldan, günəşdən və aydan, cənnət və cəhənnəmdən “mızıldayan” şairləri lağa qoyur:

Sizin tutduğunuz bu yol asandır, Fəqət axmaqlarçün “ürəkaçandır”.

Şeriniz ürəyi gətirməz coşa,
Qanan kəslər üçün bəladır başa!

Mirzə Şəfi şeirlərində eyni zamanda, həyatdan zövq almağa çağırır. Lakin, bu onun əxlaqi görüşlərinin yeganə məğzini təşkil etmir. Şair özünün maarifçilik ideyalarında insanı mənən, ruhən təmizləyən məhsuldar əməyin roluna da böyük əhəmiyyət verir. Mirzə Şəfi əməyə, əsasən əxlaqi bir kateqoriya kimi baxır.

Məhəbbətə himn, onun şeirlərində əməyə himnlə ahəngdar bir şəkildə səslənir. Şair insan əməyinə müraciət edərək deyir:

*Ey bəşərin xilasına edilən kömək,*
*Ey göylərin ilk töhfəsi sevimli əmək!*
*Sənə xidmət edənlərə təsəllisən sən,*
*Müdriklərin ilk arzusu, ilk istəyisən.*
*Ancaq, nadan çətin işdən qaçar asana,*
*Məhv olardım dirənmədən min yol əsana!*
*Ey göylərin ilk vergisi!.. Insan ki, sənə*
*Daim sadiq qalasıyam gedincə sinə.*[1]

"Başa bəla gətirən həqiqətdən ürək sevindirən yalan min dəfə yaxşıdır"[2] – deyən Bodenştedtdən fərqli olaraq,

---

[1] Qəbir
[2] F.Bodenstedt. "Aus Morgenland und Adeudland". Leipzig. 1882, səh. 51.

Mirzə Şəfi öz şeirlərində həqiqət və doğruluğun tərəfində durur. O deyir ki, həqiqəti müdafiə etmək çətin olsa da, onu müdafiə etmək lazımdır.

*Qoy sən həqiqəti söyləyən zaman,*
*Qopsun min təhlükə, qopsun min tufan.*
*Gəl baxma bunlara, ey Mirzə Şəfi,*
*Uca tut daima arı, şərəfi!*

Mirzə Şəfiyə görə, həqiqəti ifadə etməyin ən yaxşı yolu şeirdir. Şeirlə həqiqət, həqiqətlə şeir qardaşdır.

*Qəlbimin, ruhumun qanadıyla mən,*
*Çıxdım aydınlığa zülmət gecədən.*
*Gördüm şeriyyətdə həqiqətimi,*
*Tapdım həqiqətdə şeriyyətimi.*

Qadın azadlığı məsələsi Mirzə Şəfi poeziyasında xüsusi yer tutur. Şair deyir ki, Şərq gözəlinin qara çadra altında gizlənən üzündən çadranı atması lazımdır ki, bəşəriyyət həyatın ən gözəl nemətlərinin birindən məhrum olmasın. Bu cəhətdən "Tulla çadranı" şeri xarakterdir.

*Tulla gəl çadranı... görünsün üzün,*
*Gül də, gizlədərmi de, bağda özün?*
*Səni qadir Allah, ey incə çiçək,*

*Yaratmış dünyaya verməkçin bəzək.*
*De, bunca lətafət, bunca məlahət,*
*Solsun dar qəfəsdə neyçin, nəhayət?!*

Şair yoxsulluğa dünyada ən böyük, hətta ölümdən də dəhşətli bir hadisə kimi baxır. Yoxsulluq, ehtiyac Mirzə Şəfiyə görə ən ağıllı adamın belə qürurunu sındırır; onu elə adamlara tabe edir ki, onların qarşısında boyun əyməkdənsə, ölüm yaxşıdır. Ehtiyac şeriyyətin düşmənidir.

Şair "yoxsulluq" və "bədbəxtlik" haqqında danışsa da, onlardan qurtarmağın yolunu müdriklikdə, ağılda, insanın möhkəm iradə və mənəvi yüksəkliyində görür. Şair bəzən öz oxucusuna təsəlli verir, ruhdan düşməməyə, gözəl gələcəyə ümid bəsləməyə çağırır. O deyir ki, elə bir varlıq yoxdur ki, əzabdan azad olsun. Lakin, hər gecənin bir gündüzü var! Hər şeyi ürəyinə salma, çünki hər şey dəyişir.

Mirzə Şəfinin şeirlərində dini xurafata qarşı mübarizə ideyası mühüm yer tutur. Şair göstərir ki, insan bir dəfə dünyaya gəldiyi və onun iki həyatı olmadığı üçün, o biri dünyaya ümid bəsləməməli, yer üzündə xoşbəxt olmağa çalışmalıdır. Cənnəti bu dünyada axtarmaq lazımdır, xoşbəxtlik göylərdə deyildir... O, bu barədə çoxlu qısa kəlamlar, aforizmlər yazır. Şairin qənaətinə görə, bu cür şeirlər xalqa asanlıqla çatır, onların qəlbinə tez təsir edir və çox yaşayır. Mirzə Şəfinin hətta ayrı-ayrı din formalarının mahiyyətini eyniləşdirilməsi belə, onun düşmənləri olan mollaların xüsusi nifrətinə səbəb olurdu.

Mirzə Şəfinin bədii yaradıcılığı, onun əsərlərində irəli sürdüyü ictimai-fəlsəfi ideyalar xalqımızın mədəniyyət tarixində xüsusi yer tutur. Şairin yaşadığı dövrdə həmin ideyalar, bütün köhnə cəmiyyətə, onun həyat tərzi və geri qalmış görüşlərinə qarşı çevrilmişdi. O dövrdə köhnə cəmiyyətə, islam dini və şəriət qaydalarına qarşı az adam belə açıq, cəsarətlə çıxış edə bilərdi. Buna görə Mirzə Şəfi müəyyən mənada tək idi. Lakin, onun hər halda M.F.Axundov kimi bir ardıcılı da var idi.

Mirzə Şəfi öz ədəbi fəaliyyəti ilə Azərbaycanda bütün sonrakı ictimai fikrin inkişafına verdiyi güclü təkanın nəticələrini görə bilmədi. Lakin, onun ideyaları getdikcə yayıldı. M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani və başqa ədib və mütəfəkkirlərimiz tərəfindən davam və inkişaf etdirildi.

*Zahid Orucov*

# Alman dilindən tərcümələr

## MƏHƏBBƏT TƏRANƏLƏRİ

* * *

Bu kiçik məhəbbət təranələrim,
Yaranmış ətrindən tər nanələrin.
Əks-sədasıdır bu səslər, ey dost.
Eşqin, səadətin və nalələrin...

* * *

Ağlımla qəlbimin özgə yolu var,
Hər biri bir yolda puç edər məni.
Birisi sevdadan uzaqlaşdırar,
O biri sevdaya tuş edər məni.

Ağlım gecə-gündüz yazıq qəlbimi
Daima danlayar, daima söyər.
Qəlbimsə sevdaya bir həris kimi,
Daima istəyər, daima sevər.

* * *

Şərab məclisində, gül məclisində,
Dodaq məclisində, dil məclisində
Verərkən hurilər şirin busəni,
Şeytanın lənəti qorxutmur məni.

* * *

Günəş işığını yayıb hər yana,
Min rənglə nur səpir mavi ümmana.
Onun şöləsindən bərq vuran sular,
Az qalır alışa, az qalır yana.

Sənə oxuduğum təranələrin,
Sonsuz ümmanında günəşsən, pərim!
Odur ki, bərq vurub yanır, parlayır,
Çöhrənin şövqündən bu nəğmələrim.

* * *

Yenə gəldi qızıl gülün dövranı,
İşıq saçıb dörd bir tərəf vurdu bərq.
Cilvələnib yer üzünün hər yanı,
Dodaqların busəsinə oldu qərq.

Gül bülbülə, bülbül gülə etdi naz
Ürəklərdən uçub getdi kədər, qəm.
Qocalar da budur, – deyib – gəldi yaz!
Gülün, meyin məclisinə oldu cəm.

* * *

Qovuşan zamanda könül könülə,
Nəfəslər nəfəsə, çiçəklər gülə,
Dodaqlar edərkən abi-həyat nuş,
Ağıl sərxoş olur, başdan çıxır huş.
Ötərgi hisslərə amma, vermə haq,
Hər adi cismani nəşədən uzaq!
Bizim sevdamızın ülvi qüvvəsi,
Nəcib arzuların səsidir, səsi!

* * *

Sənin dodağından busə almasam,
İllərlə yanında mehman qalmasam,
Bu fani dünyaya nə etsəm yenə,
O qismət eyləməz səadət mənə.

Baxışın qəlbimə işıq, nur çilər,
Onunla dünyanı ağıl dərk edər.
Ən nəcib hisslərin açarıdır o,
Ömrümün-günümün baharıdır o!
Şirin arzularım göylərdən dərin,
Mənim sarbanımdır şux nəzərlərin.

* * *

Küləklər işlədir dəyirmanları,
Maşını tərpədir suyun buxarı.
Döyüşə sövq edir bu qəlbimizi,
Coşan hissimizin sərt tufanları.

Lakin min küləkdən, tufandan, sudan
Bütün qüvvələrin hamsından inan,
Bir güclü qüvvə var, bir güclü nəsim, –
Sənin məlahətli, incə nəfəsin!

**ZÜLEYXA**

Göy üzünü bəzəyirsə al günəş necə,
Qəlb evimi bəzəyirsən sən də, eləcə.
Yetişmişəm sayəndə mən bu səadətə,
Könlüm bil ki, düçar olar sənsiz zülmətə.

Bəllidir ki, yerə zülmət düşəndə birdən
O, gizlədər hər nə varsa gözdən, nəzərdən.
Amma günəş nur saçanda göylərdən bizə.
Yerin bütün gözəlliyi görünər gözə.

* * *

Cənnət qapıları günün birində,
Mömin bəndələrə açılan zaman.
Günahlı, günahsız...hamı yerində
Gözləyər qəlbində şübhəylə, güman.

Bütün günahkarlar içində tək mən,
Dayanıb duraram qara-qorxusuz.
Cənnət qapısını bu dünyada sən
Açmısan üzümə ey nazəndə qız!

* * *

Göydə dövrə vuran ulduzlara bax,
Yenə nur saçırlar bizlərdən uzaq.
Başımız üstündə o qızıl çətir,
Bizim arzumuzdan toxunmuş nədir?!
Durub bir-birindən uzaqda yanar,
Gah batar, gah da ki, sayrışar onlar.
Qəmli dursalar da, səmada titrək,
Onlar da birləşər bir vaxt bizim tək.

* * *

Sevinib dolandıq biz aşina tək,
Yeni bir eşq ilə döyündü ürək.
Səninlə dost oldum, ey gözəl xilqət
Verdi məhəbbətin mənə mərifət.
Indi dərk edirəm başqa cür, qəti
Eşqi, səadəti və məhəbbəti.
Səni istər ikən gətirmək ələ,
Mən özüm olmuşam qarşında kölə...

* * *

Munis gəncliyinin əzəmətiylə,
Sən mənim qarşımda saçanda şölə,
Sanasan önümdə açıldı göylər.
Mat-məbhut qaldım mən yox oldu kədər.
Misilsiz nemətdir seyr etmək səni,
Baxdım, məftun etdi camalın məni.
Uçdun, qanadlanıb üstümə birbaş,
Sanki olmuş idik nə vaxtdı sirdaş.

* * *

Cəhalət içində olmuşdum sərsəm,
Qocalıb getmişdim ürəyimdə qəm.
Gümrah cavan etdi yenidən məni,
Bir mey, bir məhəbbət, bir də ki, nəğməm
Mey iç, Mirzə Şəfi, dayanma gəl boş,
Ol meylə, sevdayla, nəğməylə sərxoş.
Yalnız nəşə çağı coşar nəğmələr,
Odur ki, ey nəğməm, nəşələnib coş?

* * *

İstədim ki, bir dəmət düzəldim
ey mələk, sənə,
Əfsus ki, tapmadım mən, nə gül,
nə bir çiçək, sənə.
Dörd yanım indi gül-çiçək,
dörd yanım indi yasəmən,
Əlim irişməz[1] əlinə, artıq yoxsan
yanımda sən...

[1] Çatmaz

* * *

Qoy o vaxta kimi ömür uzansın,
Dövranın qanadı düşsün, dayansın.
Şirin bir həsrətin, xoş xatirənin
Qiyməti böyükdür, mənası dərin.
İnan, çatmasa da əlim əlinə,
Sənin yanındadır xəyalım yenə.

* * *

Biz də qucaqlaşıb, biz də yanarıq,
Çıxar yadımızdan dərdimiz artıq.
Qəlbimiz qızınıb hərarət ilə,
Isidər dünyanı məhəbbət ilə.
Yerlə göy əyilib qovuşar yenə,
Busələr verərək biri-birinə.
Onlar da yetərlər arzuya, kama,
Onda mən yer ollam, sən isə səma.

* * *

Nüfuz eyləyərdik yerin tərkinə,
Uçardıq göylərə, ulduza, günə.
Yuxlamış sirləri salardıq oyaq,
Şirin nəğmələrə asardıq qulaq.
Bütün yer üzünün gözəllikləri,
Ilıq yay havası, çəmən gülləri,
Göydə ulduzlar da, güləndə üzə
Deyərdik hamısı verilmiş bizə.

* * *

Fələyin çərxini saxlamaq olmaz,
Böyük sevincin də ömrü olar az.
Gəldim, məsud olam, yanına sənin
Döndim, nəqş oldu ki, qəlbimə əksin, –
Səadət yolunu göstərsin mənə,
Bir də, çatmaq üçün əlim əlinə.

## KÖHNƏ MƏHƏBBƏT

Vaxt var idi güclü, cavan qolumla,
Səni bərk-bərk qucaqlayıb öpərdim.
Gənclik getdi... Köhnə eşqin oduyla,
Vurur qəlbim indiyədək... nə dərdim!
Mənim həyat üzüyümün qaşısan,
O üzüyün bəzəyi sən, daşı sən.
Inan, bütün nəğmələrim sənindir,
Ürəyə bax... neyləyirsən yaşı sən.

## HİKMƏTLİ SÖZLƏR, ZƏMANƏDƏN ŞİKAYƏT VƏ ETİRAZLAR

* * *

Qəlbimin, ruhumun qanadıyla mən,
Çıxdım aydınlığa zülmət gecədən.
Gördüm şeriyyətdə həqiqətimi –
Tapdım həqiqətdə şeriyyətimi.

* * *

Qoy sən həqiqəti söyləyən zaman,
Qopsun min təhlükə, qopsun min tufan.
Gəl baxma bunlara, ey Mirzə Şəfi!
Uca tut daima arı, şərəfi,
Həqiqət bir şeydir gözəllik ilə,
Olarmı gözəllik gəlməsin dilə?
Cəzadan, təqibdən olmaqçün uzaq,
Bəzən sözlərini söyləmə çılpaq.
Asta ol, özünü daim gözlə sən,
Acı sözünü də, de xoş sözlə sən.

* * *

Şahların ziynətli hədiyyəsinə,
Təriflə vurarıq daha da ziynət.
Ancaq təbiətin min töhfəsinə,
Inanın, vermərik bir dəfə qiymət.

* * *

Selləri coşdurub, çaylar axdıran.
Göydə buludlara şimşək çaxdıran.
Sonsuz qüvvələri peyda eyləyən
Bəşər taleini vəsf edirəm mən.

* * *

İti qılınc sürüşərək düşsə yatağa.
Üzü yumşaq ipək üstən sıçrar qırağa.
Bu dünyada kəskinlikdən, zor, gücdən artıq
Səmər verər xeyirxahlıq və mehribanlıq.

* * *

Düzlüklə alçaqlıq çarpışan zaman
Alçaqlıq nədənsə qazanır hər an.
Çünki alçaqlarçün ən alçaq işlər,
Alçaqlıq deyildir, hünərdir, hünər.

* * *

Müdriklik adamı çox xoşbəxt edər,
Lakin elm artdıqca, çoxalar kədər.
Bu dünya üzündə xoşbəxtdir axmaq,
Aqil həsəd etməz ona da, ancaq.

* * *

Mal-dövlət vərəsəlik olsa da, asan,
Zəhmət çəkib bir ev tikmək müşgüldür yaman.
Babaların, nənələrin şanı-şöhrəti,
Nəvələrin qürurunu artırar qəti!
Lakin, verər insanlara əsl ləzzəti,
Öz əliylə qazandığı varı-dövləti.

* * *

Özünü şux göstər, özünü saxla,
Getməsin üzündən təravət əsla.
Amma düşünmə ki, ölüm nə gəzir?
O, durar qapında bir gün müntəzir.

* * *

Bu dünyanın kədərini, qəmini,
Sorsan, deyər yer üzündə hamıdan,
Ahu-fəğan çıxırarmı bu dərdi
Ürəklərin viran qalmış damından?
Fəlakətə, işgəncəyə, kədərə,
Üstün gəlib qılınc çəkmək gərəkdir
Ümid bağla sən bir yolluq hünərə.
Üləmalar[1] nə desələr, kələkdir.
Anlaşılmaz möüzənlə, duanla
Sən artırma bu dünyada ələmi.
Qoy məqsədin bir şey olsun... gəl anla,
Tez ol qurtar dərdü-qəmdən aləmi!

[1] Alimlər. Burada kinayə və eyhamla işlədilmişdir. Mollalar, ruhanilər nəzərdə tutulur (Red.).

* * *

Şikayətmi edim, gülümmü, bilməm
Dünyanın yarısı dərrakədən kəm.
Edir utanmadan, eyləmədən ar,
Mini bir axmağın sözünü təkrar.
Yox! Səni mədh edim, qoy ey yaradan,
Ki, tutmuş dünyanı bu qədər nadan.
Etməsəydin bizə bu mərhəməti,
Olmazdı ağlın da qədri, qiyməti.

* * *

Məni sevənlərə məhəbbətim var,
Nifrət edənlərə min nifrətim var.
Əgər əl çəksəm də, səadətimdən,
Mən əl götürmərəm bu adətimdən.
Kişisən, var isə səndə cəsarət,
Olsun xislətində belə bir adət:
Yaxşılıq edənə yaxşılıq eylə,
Cavab ver yamana yamanlıq ilə.

Türfə gözəlləri sevib duyarlar,
Qəşəng gül yanağı sığallayarlar.
Əkib becərərlər münbit tarlanı
Əzib öldürərlər əfi ilanı.
Namusa, qeyrətə sataşanları
Əfv edən, əslində zəif adamdır.
Yumşaqlıq yaraşar qadın qəlbinə
Kişininki isə bil, intiqamdır!

* * *

Ey bəşərin xilasına edilən kömək, –
Ey göylərin ilk töhfəsi, sevimli əmək!
Sənə xidmət edənlərə təsəllisən sən.
Müdriklərin ilk arzusu, ilk istəyisən.
Ancaq, nadan çətin işdən qaçar asana,
Məhv olardım dirənmədən min yol asana!
Ey göylərin ilk vergisi!.. Inan ki, sənə
Daim sadiq qalasıyam gedincə sinə.

* * *

Gülüb cavabını qaytar mehriban,
Birisi kinayə edərsə sənə.
Bil ki, kinayəyə layiq olmayan
Min bir kinayədən alçalmaz yenə.

* * *

Sən öz mənliyinin dar sarayından
Kənara çıxmasan, ey dostum, inan,
Anla ki, ömründə ola bilməzsən
Düzlük evində də, bir dəfə mehman.

* * *

Ələ qədəh alsan, gəl olma nadan,
İçmə hiss etmədən, içmə duymadan.
Özünü böyüdüb boş yerə şişmə,
Bir də ki, alçalıb ayağa düşmə.
Elə bil şeh ilə dolubdu lalə,
Qızarır əlində qızıl piyalə.
İç, amma su kimi içərsə bir kəs
Meyin bu dünyada qədrini bilməz.

* * *

Tozu qaldırsa da nə qədər külək,
Toz öz tozluğunu dəyişməyəcək.
Gömülmüş olsa da, toza cəhavir,
Yenə də, qiyməti öz üstündədir.

İBN YƏMİN*[1]

Bir gün İbn Yəmin dedi ki, söylə
Ey atəş böcəyi, nədir bu şölə?
Gündüz olan kimi sönürsən müdam,
Alışıb yanırsan düşəndə axşam.
Böcək dilləndi ki: – Ey İbn Yəmin!
Gündüz də nur saçıb yanıram həmin.
Fəqət, günəş göydə parlayan zaman,
Görünməz nurumdan mənim bir nişan.

[1] İzahat və şərhə ehtiyacı olan adlar, ayrı-ayrı söz və beytlər bundan sonra da mətndə bu işarə (*) ilə göstəriləcəkdir (Red.).

* * *

Bir gün qoca molla dayanaraq lal,
Coşmuş arvadına asırdı qulaq.
Cırnadıb arvadı daha da bu hal,
Onun sinəsinə çəkirdi min dağ.
Durub bu minvalla bir xeyli zaman,
Bir söz söyləmədən öz arvadına.
Molla tez güzgünü qapıb divardan,
Qorxunc sifətini göstərdi ona.
Qorxdu öz-özündən güzgüdə arvad,
Bir anlıq duruxdu, xəyala daldı.
Daha qoparmayıb o bir də fəryad,
Ağzı açıq halda yerində qaldı.
Sonra da üzünü o tutub yana,
Qapıya üz qoydu sakitcə, dinməz.
Özü də özündən gələrək cana,
Qapıdan çıxaraq oldu görünməz.
Sənin də, ey Şəfi, bu nəğmələrin,
Əks edir hüsnünü axmaq kəslərin.
Dünyada eybinə kor olmayanlar,
Görüb bu güzgüdə özünü anlar.

* * *

İtir ömrün bir zərrəsi hər bir nəfəslə,
Ötüb gedən geri dönməz, ha onu səslə.
Gərək ola əvvəlindən nəcib məqsədin,
Qarşındakı amalını edəsən yəqin.
Bu dünyaya gəlmək deyil sənin günahın,
Boş keçibsə ömrün, ərşə çıxacaq ahın.

* * *

Kobud əllər toxunmasın gözəlliyə, olmaz gərək,
Əsil almaz qaşı mütləq cilalasın almaz gərək.

* * *

Əgər mənsəb pilləsiylə qalxmaq istəsən,
Gərək mütləq iki şeyə əməl edəsən:
Dinmək lazım gələn yerdə, susasan gərək,
Susmaq lazım gələn yerdə, dillənəsən bərk.

* * *

Beşikdən ta qəbrə qədər yol var ki, şəksiz
Əldə əsa, ya əsasız keçməliyik biz.
Arasında bunun yalnız fərq var ki, bircə
Kim həyatda həmin yolu keçəcək necə!

* * *

Yer üzündə o adama olsun ki, əhsən
Deyə bilir bu dünyaya vida edərkən:
“Bir günahım yoxdur, ancaq, çox olmuş ahım,
Bundan sonra yaxşı olsun təki, ilahim!”

* * *

Başqasının barəsində pis söz eşitsən,
Onu yayma heç bir zaman möhkəm saxla sən.
Asandırsa başqasının evini yıxmaq,
Çox çətindir amma, daşı daş üstə yığmaq.

* * *

Cansız bir baş qan qaraldıb korlayar meyli,
Başsız canın çox az olar insana xeyri.
Lakin, canla baş bir yerdə olarsa əgər,
Ömür daim rahatlıqla, rifahla keçər.

* * *

Gülüstandan əsib gələn ətirli külək,
Əziz dostum, söylə sənə vermirmi ürək?
Niyə onda bir xoş xəbər eşidəndə sən,
Özgəsinin sevincinə sevinməyəsən?
Bataqlığın üfunətli, pis havasından
Axı dostum, kənar gəzib daim qaçırsan.
Onda vurma bədxahlığın gölünə gəl, baş
Qeybət dolu məclislərdən qaçıb, uzaqlaş.

* * *

Tale bir töhfəni edərsə halal,
Onu əldə şərab, gülər üzlə al.
Özün bacarmasan gər bunu, heç vaxt
Səni padşah da, edəmməz xoşbəxt.

* * *

Şeir deyən bir kimsənin sərrafdırsa əgər gözü,
Tapar əsil fikir üçün lazım olan əsil sözü.
Əsil şair olan kimsə, söz önündə qalmaz naçar,
Əsil evin qapısına tapıb salar əsil açar.

* * *

Nəğməsindən məscid havası gələn şairlərin,
Başları boşdur yəqin, ağılları deyil dərin.

* * *

Qulağı oxşayan boş hecalardan,
Min cürə uydurma macəralardan,
Cənnət, cəhənnəmdən, dənizdən, çaydan,
Güldən və bülbüldən, günəşdən, aydan,
Hicrandan, vüsaldan, qəmdən, kədərdən
Min dəfə çeynənmiş qafiyələrdən,
Şeir quraşdırıb mızıldayanlar!
Sizə şair kimi min nifrətim var!
Çünki tutduğunuz bu yol asandır,
Təkcə axmaqlarçün "ürəkaçandır".
Şeriniz ürəyi gətirməz coşa,
Qanan kəslər üçün bəladır başa!

## SƏRV AĞACI

Azadlıq rəmzidir şux sərv ağacı,
Əyilib budağı toxunmaz yerə.
Ardınca cəzb edib o, nəzərləri
Daima ucalar nurlu göylərə.
Fırtınamı qopdu, küləkmi əsdi,
Tökülməz yarpağı, əyilməz qəddi.
Bilməz bu dünyada riyakarlığı,
Ülvidir, nəcibdir onun varlığı.
Qarışıq həyatın qəmindən uzaq,
Sakit məzarlıqdan göylərə qalxar.
Sərin kölgəsinə kim gəlsə qonaq
Dalınca göylərə boylanar, baxar.
Bir yaşıl qüllədir – ümid qülləsi,
Ucalıb təpəsi ərşə dayanar.
Altında gəmirər qurdlar məzarı,
Üstündə ulduzlar sayrışıb yanar.

* * *

Tulla gəl çadranı... görünsün üzün
Gül də gizlədərmi de bağda özün?!
Səni qadir Allah, ey incə çiçək,
Yaratmış dünyaya verməkçün bəzək.
De, bunca lətafət, bunca məlahət,
Solsun dar qəfəsdə neyçün, nəhayət!
Tulla gəl çadranı... bilsin ki, dünya
Yoxdur yer üzündə sənin tək afət.
Qoy sənin nəzərin hər yana baxsın,
Baxışın qəlbləri yandırıb yaxsın.
Pəmbə dodaqların təbəssümləri
Ətrafa nur yaysın, açsın səhəri.
Sənə, çadra kimi ey incə mələk,
Tək gecə zülməti olsun bürüncək.
Tulla gəl çadranı... hüsnün tək hüsnü
Istanbul soltanı görməmiş belə!
Uzun sıx kirpiklər arasındakı,
O aydın gözlərin – nurlu piyalə.
Aç qara gözünü , çadranı tulla!
Həyatda cəsur ol, yaşa qürurla.

* * *

Bir Mirzə üz tutub soruşdu məndən:
“Bizim şah haqqında nə fikirdəsən?
Söylə genişdirmi ondakı ürək,
Sazdırmı ağlı da, qulaqları tək?”
“O da bir adamdır qalanlar kimi, –
Əba, əmmaməsi olanlar kimi.
Xalqın cahil, qorxaq, kor olduğunu
Bilib cəhalətdə saxlayar onu”.

ŞAH ABBAS

Şah Abbasın bir vaxt zülmü yetmirdi sona,
Kim gəlirdi tullayırdı bir-bir zindana.
Məsləhətə qulaq asmaz, fikri qan idi,
Tanrısından üzü dönmüş hökmran idi.
Sığmayırdı yerə-göyə şahlıq vüqarı,
Vəhşi kimi parçalardı qulluqçuları.
O müstəbid hökm eləyib yerin üzünə,
Allah kimi baxırdı o, özü-özünə.
Düşüb müdrik adamlardan tamam uzağa,
Çevirirdi qulağını yalnız yaltağa.
Baxsa kəskin bir nəzərlə o, bir insana
Bil ki, onun ömrü o gün yetərdi sona.
Şahdan xeyli zülm çəkmiş müğənni Səlim,
Dedi bir gün yuxarıya qaldırıb əlin:
“Ay camaat, dözürsünüz neyçin bu qədər,
Şah axmaqdır, siz özünüz ondan beşbətər!
Hədə-qorxu bəsdir daha! Bir nəfər murdar,
Bu qədərin əl-qolunu necə bağlayar?!”
“Şah güclüdür! Biz neynəyək özün de barı”
“Ələ salın, sınıb getsin tamam vüqarı,

Siz dəyişin, qorxub sizdən o da dəyişər,
Yoxsa ona heç bir tədbir eyləməz əsər".
Dünyagörmüş müğənninin haqlı sözləri,
Açdı sanki birdən-birə bağlı gözləri.
Səhəri gün şah yenə də təkəbbür ilə,
Tərk eləyib sarayını çıxarkən çölə
Baxıb ona qəhqəhəylə güldü camaat,
Şah bu işə heyrət etdi donub qaldı mat,
Hiddətindən alnı oldu tamam qapqara,
Baxdı odlu gözləriylə o, adamlara.
Xalqa onun kar etmədi qəzəbi bir an,
Güldü hərə bir tərəfdən daha ucadan.
Dörd tərəfdən qəh-qəh çəkən riəyyət ilə,
Pıçıldaşıb gülüşürdü məiyyət belə.
Şah özü də birdən-birə qalıb çarəsiz,
Güldü bütün camaatla göstərib xoş üz.
(Düz deyiblər, gülmək açar donuq məzacı)
Həmin gündən şah dəyişdi, xalq qaldı razı.
Camaatın şikayəti azaldı, kəsdi,
Şahın adı dildən-dilə dolaşdı gəzdi.

* * *

Tulla, Mirzə Şəfi boş, niyyətini,
Əl çək sərsəmlikdən, sərvaxt ol, sərvaxt!
Sən öz hünərini, fərasətini
Ağıllı bir işə sərf eylə hər vaxt.
Bax gör, Mirzə Hacı Ağası* birdən
Iranda nə böyük bir cənab olub!
Əvvəl seçilməzdi heç birimizdən,
Indisə sinəsi nişanla dolub!
Sərf eylə qüvvəni dövlətə sən gəl,
Xeyir verməmisən ona heç zaman.
– Axı, mən neyləyim: vəzir, vəkillər
Əksərən olurlar ən böyük nadan.

ŞAH MANİFEST YAZDI
ƏLİYLƏ BİR GÜN

Şah manifest yazdı əliylə bir gün,
Küllü İran xalqı mat qaldı bütün.
"Necə müdrikanə gözəl kəlamlar!"
Bir-bir sevindilər bütün adamlar.

Hamı bayram etdi: "Dünyada təksən
Ey böyük şahımız sənə min əhsən!"
Baxdı Mirzə Şəfi bir xeyli müddət,
Bu səslər qəlbində doğurdu heyrət:

"İran camaatı İranda, aman
Gör necə baxır ki, şah ilə xana;
Onlar bir ağıllı iş görən zaman,
Tamam heyran qalıb sevinir buna".

* * *

Bir gün gedirdim mən bir dalda yolla,
Nəqafil qarşıma çıxdı bir molla.
– Ay Mirzə, xeyr ola nə olmuş yəni,
Heç görmək olmayır məsciddə səni?
– Çünki əziz dostum, qaralır qanım,
Səni görən kimi azır imanım.

* * *

Nə qədər olsa da qəm, qüssə, kədər,
Dünyada dərd varmı yoxsulluq qədər?
Yazıq insanları bu dərdli tilsim
Qoymur nə yaşasın, nə də ki, ölsün.

Məhv edib insanın diləklərini,
Tökdürür ömrünün çiçəklərini.
Ən möhkəm adamın girib qəsdinə,
Qırır qürurunu dəyib şəstinə.

Aqili axmaqdan eyləyir aslı,
Saxlayır qəlbini hüzünli, yaslı,
Acı fəlakətlər törədir hər an,
(Axı yaşamağa yaranmış insan!)

Yoxsulluq şairə bir boş məzardır,
Sərvət də, miknət də alçaqlardadır.
Onların önündə əyilən bir baş
Gərək ayaqlarda əzilsin birbaş.
Ruhdan düşməməli, dərd, qəm nədir ki,
Bircə partlamasın qəlbimiz təki!
Zülmün bu dünyada hikməti yoxdur,
Hikmətin zülməsə davamı çoxdur.
Dərdü qəm əlində nə yan, nə inlə
Qovla sən onları nəğmələrinlə...

# ORJİNAL ŞEİRLƏR

# AZƏRBAYCANCA ŞEİRLƏR

## QƏZƏL*

Nə qədər kim, fələyin sabitü səyyarəsi var,
Ol qədər sinədə qəmzən oxunun yarəsi var.
Deyil əflakdə kövkəb görünən çərxi-bülənd
Oluban didə, sərapa sənə nəzzarəsi var.
Ruzigari qara, daim gecəsi tar keçir,
Hər kimin eşqdə bir yari-sitəmkarəsi var.
Necə qan cuşə gəlib, eyləməsin ahü-fəğan?
Könlümün dideyi-giryan kimi fəvvarəsi var!
Ol qəzəldir ki, bu, Vazeh dedi, bir dərd əhli,
Zahirən lalə otağında qonaq-qarəsi var.

MÜXƏMMƏS*

Ey nəzakət çəməni içrə xuraman Süsəni,
Xublıq kişvərinin təxtinə sultan Süsəni,
Sədəğin yayı qaşın sədqəsi qurban Süsəni*,
Bir baxışla yaraşur kim, ala yüz can Süsəni,
Belə getsə, tez olur dillərə dasdan, Süsəni.
Hərəkatü rəvişin qıldı səhi sərvini pəst,
Sünbülə türreyi-zülfün şikəni verdi şikəst,
Laləni dağa salıb ruyin, edib badəpərəst,
Ey könül, qaş-göz aradə nə gəzərsən belə məst,
Yoxdu vəhmin ki, ara yerdə tökə qan, Süsəni.
Ey mələk, əbr yüzün[1] gündümü, ya bədri-tamam?
Kim ki, ruyindən olur məst, ona badə həram,
Pərdəsiz cilvələnib, naz ilə ver qəddə qiyam,
Küfri-zülfün dağıdıb, məst çıxıb, eylə xüram,
Bilələr ta ki, nədir küfr ilə iman, Süsəni.

[1] Üzün

Bu qədü qamətinə ətləsü xara yaraşur,
Qaşların guşəsinə qətlimə eyma yaraşur,
Edə gər zində ləbin ləfzi Məsiha, yaraşur[1],
Səni, hər kim ki, sevər, başına sevda yaraşur,
Ola sərgəştəvü divanəvü heyran, Süsəni.
Gün ki, hər gün çıxar, dərgəhinə səcdə edər,
Sərv rəftara gəlür, qılsa qədin bağə güzər,
Qönçə gər ağzın ilə qarşu dura, boynu əyər,
Küfri-eşqin yetişib bir yerə kim, ey kafər,
Desələr Vazehə böhtandı, müsəlman, Süsəni!

* * *

Min ev yıxıb, tikirsiniz bir boş minarə,
Ərşə çıxıb, qonaq gedin pərvərdigarə*.

* * *

Hicran qəminin badeyi-gülgündür əlacı*
Vazeh, danışırlar bunu meyxanələr içrə.

---

[1] Bu işarə ilə verilən şeirlər Ə.Ə.Seyidzadənin "Gəncəli böyük mütəfəkkir və şair Mirzə Şəfi Vazeh" (Gəncə, 1929) kitabçasından alınmışdır.

MİRZƏ ŞƏFİ VAZEHLƏ NACİ
VƏ NASEHİN MÜŞAİRƏSI*

Vazeh

Səbzpuş olmuş qədin ruxsari-atəşgunilə,
Musiyi-Imranə guya, Tur şəklin göstərür*.

Naci

Tiğin almış dəstinə, ol çeşmi-cəlladın sənin,
Canə qəsd etmək dilər, məxmur şəklin göstərür.

Çismi-zarımdan çıxar hicrin əlindən nalələr,
Böylə bir təndir tənim, tənbur şəklin göstərür.

Xətti-rüxsarın edib tarac hüsnün mülkünü,
Bir xərabə şəhr içində mur şəklin göstərür.

Naseh

Göz sirişgi mərdüməknin[1] nöqtəsin bərbad edib,
Aqibət bir gün olur kim, kur şəklin göstərür

Tilbə könlüm tillər ilə asılub, tildir[2] səbəb,
Filməsəl, baxqan kəsə Mənsur şəklin göstərür*.

Kəhraba dik[3] rəngi-zərdim sanmağay bihudə kim,
Dərdi-eşqə uğramış, rəncur şəklin göstərür.

Dinu dil nəqdini isar etsə Naseh, tang imas,
Bir mühəqqər töhfə ilə mur şəklin göstərür.

---

[1] "Göz bəbəyi" deməkdir (farsca)
[2] "Könül" mənasında
[3] Tək, kimi

## FARSCA ŞEIRLƏR

### QƏZƏL*

Hər zəman kan qədd-o bala ze nəzər miqozərəd.
Vəh, çeha bər del-o bər dideye-tər miqozərəd!
Mənəm, ey şeyx, ze nəzzare məkon, kəz roxe dust
To çe dani ke, çe bər əhle bəsər miqozərəd!
Ey ke, bər mən qozəri, məhv koni əz xişəm,
Həm ço xorşid ke, bər dovre qəmər miqozərəd!
To ke, çəndin bekeşi damən əz oftadeye-eşq,
Dəste kutahe mənət, key, bekəmər miqozərəd?
Qofteye Vazeh əz an ru həme şirin aməd,
Bezəbanəş soxən əz ləl-o şəkər miqozərd.

(Sətri tərcümə)[1]

O qəddü qamət xəyalımdan keçərkən,
Ah, könlümdən və yaşlı gözlərimdən nələr keçər!
Ey şeyx, yarın üzünə baxmağı mənə qadağan etmə,
Bəsirət əhlinin[2] nəzərindən nələr keçdiyini
sən nə bilirsən?
Günəş ayın yanından ötərkən onu yox etdiyi
kimi,
Sən də mənim yanımdan ötüb keçərkən,
varlığımı məhv edirsən.
Bunca ki, sən ətəklərini yıxılmış aşiqindən
çəkib uzaqlaşırsan,
Mənim qısa əllərim sənin kəmərindən bəs necə
tuta biləcək?!
Vazehin şeiri ona görə bu qədər şirin oldu ki,
O sənin ləlü şəkərindən[3] söhbət açdı.

[1] Sətri tərcümələr F.Sadıqzadənindir.
[2] Bəsirət əhli    hər şeyə nüfuz etməyi bacaran adam.
[3] Ləlü şəkər    al dodaq və şirin söz mənasında işlədilmişdir.

QƏZƏL*

Ey ke, həmhöcreye mai, vərəqe zohd beşuy,
Vey ke, sabetqədəmi, ğeyre rəhe eşq məpuy.
Əz məne ğəmzəde coz eşqe roxe yar məpors,
Ba məne delşode coz sohbəte deldar məquy.
Ta əz an dəm ke, hərime dele mən xəlvəte ust,
Faş binəm roxe u, gər negərəm bər həme suy.
Çərx sərgəşte nə anəst monəqqəş benecum,
Bəlke əndər tələbəş mande fru ğərqə be xun.
Ruze qolgəşt, bahar əst-o, təmaşa-vo tərəb,
Xiz, ta xeymə bezən ba mej-o ney bər ləbe cuy.
Vazeh əz xak sər arəd be nəsime dəre dust,
Koşteye-eşq bəle, zende təvan gəşt be buy!

(Sətri tərcümə)
Sən ey bizimlə həmnişin olan, zahidlik dəftərini suya at,
Sən ey sabitqədəm dost, eşq yolundan qeyri bir yol tutma!
Bu qəmli aşiqdən yar məhəbbətindən qeyri bir şey soruşma,
Bu zavallı aşiqlə, dildar söhbətindən qeyri bir şey danışma!
O zamadan ki, mənim könül otağım onun xəlvətgahı olmuş,
Hər tərəfə baxıram, ancaq onun şəklini görürəm.
Bu sərgərdan fələk ulduzlarla bəzənmiş kimi görünməsin.
Bəlkə, o da, bir aşiqdir, yar həsrətilə qan-yaş tökür!
Gül çağı, bahar vaxtı, tamaşa və şadlıq zamanıdır.
Qalx, çay kənarında mey məclisi qur, ney çal!
Vazeh yar qapısıdan gələn nəsimi duyunca torpaqdan baş qaldırar
Bəli, eşq ilə həlak olan məşuq ətrilə həyat tapar.

QƏZƏL*

Şahede xərgəhneşin zolf ze rox kərd baz,
Nure həqiqət pədid əz zolemate məcaz.
Dide bedidare dust, dəst dər ağuşe yar,
Eşq əz an su niyaz, hosn əz an suy naz.
Sədre hərime qəbul dər xore hər xam nist
Pəs benişin, şəmvar sər bekəş əz suz-o saz.
Torbəte Məhmud ra ruze cəza in nedast:
"Hacəte ferdos nist koşteye tiğe Əyaz"
Vazehe avare ra bange cərəs, – sovte zağ,
Paye tələb dər bemand, mənzele məqsəd deraz.

(Sətri tərcümə)
Çadırda oturan gözəl saçlarını üzündən
yığdı,
Məcaz zülmətindən həqiqət nuru parladı.
Göz dost gözündə əl yar qoynunda qərar tutdu.
Eşq bir tərəfdən, hüsn o biri tərəfdən
nazü-niyaza başladılar.
Onun qəbul otağına yol tapmaq hər xam adamın
işi deyil,
İndi ki, belədir, otur, şam kimi alış, yan və
döz.
Mahmud türbətindən cəza günü bu nida qopar:
"Əyaz qılıncı ilə ölmişə cənnət nə lazım?"*
İstək kəhəri yarı yolda, məqsəd mənzili
uzaqlarda qaldı.
İndi qarğa sədaları avarə Vazeh üçün cərəs
sədaları[1] yerini tutubdur.

[1] Karvan zənglərinin səsi

* * *

Ta key del on delaram zin del rəmide darəd,**
Vəz dustane bidel, del arəmidə darəd?
(Sətri tərcümə)
Havaxta qədər o gözəl könlünü məndən ürkmüş saxlayacaq,
Havaxta qədər o, sevən aşiqinə laqeyd qalacaq?!

RÜBAİ**

Gər mərdi ze ma zəni darəd dust,
Yarist neku-bo eybəş nə nekust.
Əmma, ze çe ruy çon zəni mərdi xast,
Dər çeşme cahan pəlid-o bəd siyreyi ust.

(Sətri tərcümə)
Bizlərdən bir kişi bir qadını sevsə,
O, gözəl bir dost sayılar və ona nöqsan tutmaq
yaxşı görünməz
Bəs nə üçün qadın bir kişini sevsə,
Dünyanın gözünə xar və pozğun görünər?!

RÜBAİ**

Can-o təne mən fədaye yek buseye yar,
Amal-o xəyale mən, bər u bad nesar.
Aşeq mənəm-o be eşqe u dər ğəm-o dərd,
Şeyda mənəm-o be hecre u zar-o nezar.
(Sətri tərcümə)
Mənim canım və qəlbim yarın bir busəsinə
fəda,
Mənim arzu və amalım ona fəda olsun.
Mən aşiqəm, onun eşqilə qəmə, dərdə
düşmüşəm
Mən şeyda bülbüləm, onun hicrilə belə
ağlar olmuşam.

RÜBAİ**

Ləb bər ləbe yar bordənəş, vəh, çe xoş əst!
Cam əz peye cam xordənəş, vəh, çe xoş əst!
Ziba sənəmi, poste ləbi, şirin quy,
Əndər bəre xod foşordənəş, vəh, çe xoş əst!
(Sətri tərcümə)
Yarla dodaq-dodağa durmaq, ah nə xoşdur!
Onunla qədəh ardınca qədəh doldurmaq,
ah, nə xoşdur!
Püstə dodaqlı, şirin sözlü, gözəl bir sənəmi
Alıb ağuşa sıxmaq, ah, nə xoşdur!

HƏSB-HAL*

Məhe nosəfərəm!
Rəfti ze nəzər, dide ze del əşk rəvan kərd,
Rəsmist peye nosəfəran ab feşan kərd.
Vəlleyli iza yəğşa! Həlake aşeq şəbe fəraq əst,
Vənnəhari iza təcəlla! Sərmayeye omr ruze vesal.
Hicran gecəsin möhnətini gər görə kafir.
Şək yoxdu ki, inkar eləməz ruzi-qiyamət.
Gər zahidi-xüdbin bilə zövqini vüsalın,
Cənnət tələbindən nə bulur ğeyri nidamət!
Vedaye dustan rəsmist qədim və ətvare yaran xolqist kərim, pəs əz çe cəhət an mobəddəl be laf şod və in motəğəyyer be xelaf.
Ey şohreye şəhr, əz çe şodi şəhr-beşəhri?
Kəl bədri iza sirtə fəsirtə kəhilali.
Dur əz to əgər dide çenin xune cegər rixt
Ma tünzürü qəd vəchəkə illa bexeyali.
Kodam xake rah betəqbile gərde ləl səməndət sər be çərxe bərinəst və kodamin sərmənzel ze nəsime torreye meşginət rəşge səhraye Çin.

Dər xaneye zin celvekonan, ərdəbəcuyan,
Hər ca ke, bedin şəkl-o şəmayel bexorami,
Əz rəşg şəvəd çərxe bərin həlqebequşət.
Vəz eçz nəhəd rəh be cəbin dağe ğolami.
Bu məsəl qələtdir ki, deyərlər gözdən gedən könüldən gedər. Madam ki, gözdəydin, gözdə idin. Indi ki, gözdən getdin, könüldəsən.
Göz ağlar kim, səni görməz, könül xüd
səndən ayrılmaz,
Məgər cismi-lətifin nazəninim, sərbəsər candır?
Hər ca ke, eşraqate qəlbist, çe doa, çe salam və anca ke bəride məhəbbətəst çe qased, çe pəyam?
Sədre hərəme vəsle to ra rahe səba ku?
Yaraye qozəştən nəkonəd peyke xəyaləm.
Tərkibi-vücudum iqtiyazi-vüsali-mehrinlədir və ədəm imkanım qibleyi-fəraqi-qəhrinlə.
Məni eşqin oduna yandırdın,
Çünki gördün yanıram, yan durdun.
Baz ay, baz ay, ke, bi to dide ra nur nist və del ra sürur ney.

Nə çareye xənde, nə məcale qoftar,
Nə zəhreye neşəst, nə yaraye rəftar,
Nə qodrəte səbr, nə qovvəte ah,
Can dər kəf-o çeşm bər rah.
Baz ay, baz ay, xorşide tələtət benəma, pərde əz cəmal beqoşa, məclese hərifan biyara. Çe caye qətən əydihin?
Dəst əz toronc əcəb nist nəşenaxtən boridən,
Dər tare hər kəməndət səd sərboride dari!

(Tərcümə)

HƏSB-HAL

Yeni səfərə çıxan ayım![1]
Sən mənim nəzərlərimdən uzaqlaşarkən,
gözlərim bağrımdan yaş axıtdı.
Bu bir rəsmidir, qaydadır səfərə
çıxanların dalınca su səpərlər.
Ah, o zaman ki, gecə zülmət çökür! Aşiqin həlakı bu
ayrılıq gecəsindədir. Ah, o zaman ki, gündiz cilvələnir!*
Ömür səadəti bu vüsal gündüzündədir.
Hicran gecəsin möhnətini gər görə kafir,
Şək yoxdu ki, inkar eləməz ruzi-qiyamət.

---

[1] Mirzə Şəfi Tiflisdə ikən bir qızı sevmişdir. Onlar bir müddət bir-birilə dostluq etmişlər. Nəhayət, qızı kənd əhlindən olan dövlətli bir oğlana ərə verib onları ayırmışlar. Bu həsb-hal həmin münasibətlə yazılmışdır. Əsər üç dildə – Azərbaycan, fars və ərəb dillərində nəzm və nəsrlə yazılmışdır.

Mirzə Şəfi nəsr parçalarını səcli (qafiyəli) nəsrlə yazdığına görə, biz də tərcümədə onu mühafizə etməyə çalışdıq (Red.).

Gər zahidi xudbin bilə zövqini vüsalın.
Cənnət tələbidən nə bulur qeyri-indamət?
Dostların ayrılıq zamanı bir-birilə vidalaşması bir rəsmdir
qədim, məşuq ətvari bir adətdir kərim[1]. Bəs nə üçün o
laf[2] oldu, bu xilaf?
Ey şəhərin məşhur gözəli, nə üçün
şəhərdən şəhərə üz tutdun.
O bədirlənmiş ay kimi dolanıb
(uzaqlaşıb) hilalə döndün?
Səndən uzağa düşəndən bəri göz beləcə
ciyər qanı axıdır.
Sənin üzünü doğrudan da, xəyaldan başqa
qeyri yerdə görmək olmazmış!
Hansı yolun torpağı sənin al kəhərinin ayaq tozu sayəsində
uca fələyə qalxmışdır, hansı yol ayrıcına müşk
qoxuyan tellərinin ətri üçün Çin səhrası paxıllıq etməyə
başlamışdır?

[1] Bəyənilmiş
[2] Yalan

Sən yəhər üstündə bu cilvələnən gözəlliyin,
bu vüqarınla,
Bu şəklü şəmayillə haraya ayaq qoysan,
Uca fələk həsədindən sənin qulağı
sırğalı qulamın olar,
Yer isə, itaətindən öz alnına nökərçilik
damğası vurar.
Bu məsəl qələtdir ki, deyərlər gözdən gedən könüldən gedər. Madam ki, gözdəydin, gözdə idin. Indi ki, gözdən getdin, könüldəsən.
Göz ağlar kim, səni görməz, könül xüd
səndən ayrılmaz,
Məgər cismi-lətifin nazəninim, sərbəsər candır?
Orda ki, könül aydınlığı var, nə dua, nə səlam, Orda ki, məhəbbət peyki var, nə qasid, nə pəyam![1]
Sənin vəsl otağına səba necə yol tapa bilər ki,
Oraya keçmək üçün mənim xəyal qasidim
belə, acizdir!

[1] Məktub

Tərkibi-vücudum iqtizayi-vüsali-mehrinlədir və
ədəm imkanım qibleyi-fəraqi-qəhrinlə[1].
Məni eşqin oduna yandırdın,
Çünki gördün yanıram, yan durdun.
Qayıt, qayıt ki, sənsiz nə gözdə nur, nə könüldə sürur[2] var.
Nə gülməyə bir həvəsim, nə söhbətə meylim
Nə oturmağa qərarım, nə getməyə taqətim
qalmış.
Nə səbr etmək qüdrətim, nə ah çəkmək
qüvvətim var
Canım dodağımda, gözüm yollardadır.
Qayıt, qayıt öz günəş camalını göstər, üzündəki pərdəni
at, aşiqlər məclisini ziynətləndir. Nə əlini kəsmək yeridir?*
Əllə türüncü bir-birindən seçməyib,
kəsmək təəccüblü bir şey deyil,
Sənin kəməndinin hər bir telində yüz
başıkəsilmiş qərar tutmuşdur**.

---

[1]Mənim həyatım sənin vüsalına çatmağımdan, məhvimsə, sənin acıqlanıb, ayrılmağından asılıdır.
[2] Şadlıq

## QEYDLƏR VƏ İZAHLAR

**Səh. 41. Ibn Yəmin Əmir Fəxrəddin Mahmud** – XIII əsr şairlərindəndir. Yaxın Şərq poeziyasında qitə ustadı kimi tanınır. Ibn Yəminin atası Azərbaycan Elxanilər sülaləsinə mənsub dövlət xadimi və görkəmli türk sərkərdəsi olmuşdur. O, Elxanilər tərəfindən Nişapura dövlət vəzifəsinə göndərilmiş, Fəxrəddin Mahmud da, burada anadan olub, böyümüşdür.

**Səh. 53. Mirzə Hacı Ağası** – Fətəli şahdan sonra hakimiyyət başına keçmiş Məhəmməd şahın (1830-cu illər) sədr-əzəmi – baş naziri olmuşdur. Hacı Ağası İran tarixində ən qəddar və müstəbid dövlət başçılarından olmuşdur.

Rus səyyahı Beryozin onu “Iran Rişelyesi” adlandırmışdır.

Mirzə Şəfinin almanca əsərləri içərisində ona yazılmış bir neçə şeri var.

**Səh. 59**. Qəzəli ilk dəfə 1926-cı ildə Səlman Mümtaz nəşr etdirmişdir (B a x : Səlman Mümtaz “Mirzə Şəfi Vazeh”, Bakı, 1926. Azərbaycan Elmlər Akademiyası yanında Respubilka Əlyazmaları fondu, inv № 18814).

Şairin kitabda 87, 88, 94, 96, 98-ci səhifələrində verilən:

“Nə qədər kim, fələyin sabitü səyyarəsi var, ”
“Ey nəzakət çəməni içrə xuraman Süsəni, ”
“Hər zəman kan qədde bala ze nəzər miqozərəd, ”
“Ey ke, həmhöcreye mai, vərəqe zohd beşuy, ”
“Şahede xərgəhneşin zolf ze rox kərd baz, ”

– mətləli şeirləri Naci və Nasehlə müşairəsi və “Həsbhal” bu mənbədən götürülmüşdür. Həmin əsərlər mətndə hər yerdə (*) işarəsi ilə göstərilmişdir.

**Səh. 60**. *Sədəğin yayı qaşın sədqəsi qurban Süsəni.*
Fikrimizcə şeirdə – gözə tuşlanan ox mənasında olan “sədağ” sözü burada ahəng incəliyi xatirinə “sədəğ” kimi işlənilmiş və əlyazmasında katib xətası olaraq, ğeyn “ğ” ilə deyil qaf “q” ilə yazılmışdır.
XVIII əsr şairlərindən Ağa Məsih Şirvaninin:

“Dila, etmə təvəqqö, rastguluq qanda qalmışdır,
Qərinə özgədir, onlar keçən dövranda qalmışdır”.

mətlə ilə başlanan müxəmməsində də, "sədağ" sözü yuxarıda dediyimiz mənada işlənilmiş və fikrimizi təsdiq edə bilər:

Sədağ oxu kimi kəctəbilər tutmuş nəzərgahi
Olar kim, doğrudur, əyri qılınc tək yanda qalmışdır.

Vazeh yuxarıda göstərilən misrada çox əyri olan sədağ yayının öz əyriliyini bir sədəqə olaraq gözəlin qaşlarından aldığını söyləyir. Bunun ona bir sədəqə, qurbanlıq verildiyini deyir.

**Səh. 61**. *Edə gər zində ləbin ləfzi Məsiha, yaraşur*.

Məsih, yaxud Məsiha Isa peyğəmbərin ləqəbidir.

Ləfzi Məsiha Isanın ləfzi – sözü deməkdir. Dini rəvayətə görə Isa guya öz nəfəsi və sözü ilə ölünü dirildirmiş.

Bu misrada şair gözəlin şirin danışığı ilə Məsihanın özünü belə, dirildə biləcəyini söyləyir.

**Səh. 61.** Şeir ilk dəfə 1929-cu ildə Ə.Ə.Seyidzadə tərəfindən nəşr edilmişdir (Bax: Ə.Ə.Seyidzadə. "Gəncəli böyük mütəfəkkir və şair Mirzə Şəfi Vazeh", Gəncə, 1929).

Şair kitabda 90, 100-cü səhifələrdə verilən:

“Min ev yıxıb, tikirsiniz bir boş minarə” ,
“Ta key del on delaram zin del rəmide darəd, ”

misraları ilə başlanan iki şeri və farsca rübailəri həmin kitabçadan alınmışdır. Bu şeirlər mətndə hər yerdə (**) işarəsilə göstərilmişdir.

**Səh. 61**. Zənnimizcə, misra yazıdan yazıya keçdikcə təhrif olunmuşdur. Şeri:

“Min ev yıxıb, tikirsiniz bir boş minarə,
Ərşə çıxıb, yetmək üçün pərvərdigarə”

– şəklində islah etmək bəlkə məqbul göründü.

**Səh. 61.** Şeir ilk dəfə çap olunur. Həmin misraların Mirzə Şəfi Vazehin olduğunu təxmin edirik.

**Səh. 62**. Səbzpuş olmuş qədin rüxsari-atəşgünilə, Musiyi-İmranə guya, Tur şəklin göstərür.

Musa peyğəmbərin (İmran ləqəbidir) Tur dağında Allahla danışığı haqqındakı hədisə işarədir. Bu hədisə – dini rəvayətə görə, guya həmin danışıq zamanı Allah Musaya od şəklində görünmüşdür.

Vazeh şeirdə gözələ müraciətlə göstərir ki, sənin boyun od saçan yanaqlarının şövqündən al-yaşıl rəngə bürünmüşdür. Sənə baxan aşiqə şəklin Musayə Tur dağında görünən odu xatırladır.

**Səh. 63**. Tilbə könlüm tillər ilə asılub,
tildir səbəb,
Filməsəl, baxqan kəsə Mənsur
şəklin göstərür.

Mənsur Həllac məşhur sufilərdən olmuşdur. İslam dini və şəriətin ehkamlarını təftiş etmək ittihamilə 918-919-cu illərdə Bağdadda Xəlifə Müqtədirbillah tərəfindən dara çəkilmişdir. Öldürülərkən o, dar ağacı altında məğrur dayanmış, tövbə etmək istəməmişdir. Buna görə də, zaman keçdikcə Mənsur Həllac obrazı Şərq poeziyasında məslək və əqidəyə sədaqətin rəmzi kimi verilmişdir.

Beytdə dar ağacından asılmış Mənsurla eşq, sevda ucundan gözəlin incə tellərindən asılmış dəli, aşuftə bir könül müqayisə edilmişdir. Birinci məslək və əqidədə nə qədər fədakar və dönməzdirsə, ikinci də (aşiq) məhəbbət və dostluqda eləcə fədakar və sabitqədəmdir.

Qe y d : Müşairə A.Bakıxanovun "Göstərür" rədifli şeri əsasında aparılmışdır:

Gözlərin kim, aşiqə məxmur şəklin göstərür.
Əhli-fəqrə mərdümi-məğrur şəklin göstərür.

**Səh. 69.** Mahmud türbətindən cəza günü bu nida qopar:
Əyaz qılıncı ilə ölmüşə cənnət nə lazım?

Burada Sultan Mahmud Qəznəvi (969-1030) ilə onun yaxın və sadiq dostu Əyaz arasında olan dostluğa işarə olunur. Əyaz öz ağıl və zəkası, həmçinin Sultan Mahmuda olan məhəbbət və səmimiyyəti ilə başqalarından seçilmişdir.

Hətta, onların arasında olan bu səmimiyyət və məhəbbət zərbül-məsələ çevrilmiş, dostluq və sədaqət

nümunəsi kimi göstərilmişdir. Şairlər bu barədə "Mahmud və Əyaz" adında çoxlu mənzumələr yazmışlar.

Vazeh bu məsələni xatırlamaqla dostluq və məhəbbəti tərənnüm etmək istəmişdir: Əyaz tiğilə – dost qılıncı ilə öldürülənə cənnət nə lazımdır? Belə bir ölüm ən böyük xoşbəxtlik deyilmi?

**Səh. 77**. "*Bəlleyli iza yəğşa!.. Vənnəhari iza təcəlla!*

– Quranda ayədir (tərcüməsi göstərilən səhifədədir). Şair burada ayrılıq və vüsal çağlarını vermək üçün həmin ayədən istifadə etmişdir.

**Səh. 80**. "Qətən əydihin" – Quranda surədir (tərcüməsi göstərilən səhifədədir). Bu surədə Yusif və Züleyxa hekayəsi verilmişdir. Dini rəvayətə görə Yusif Züleyxanı görmək üçün onun otağına daxil olanda, Züleyxa qızlarla oturub turunc kəsirmiş. Yusifin fövqaladə gözəlliyi qarşısında heyran qalan Züleyxa və qızlar turunc əvəzinə, ixtiyarsız olaraq, əllərini kəsmişlər...

Burada isə, ifadə müstəqim mənada işlənmiş, sonra rəvayətlə əlaqələndirilmişdir.

**Səh. 80.** Əllə türüncü bir-birindən seçməyib,
kəsmək təəccüblü bir şey deyil,
Sənin kəməndinin hər bir telində yüz
başıkəsilmiş qərar tutmuşdur.

(Beytin mənası "Yusif və Züleyxa" haqqında rəvayətdə verilmişdir, bax səh. 121-122).

**LÜĞƏT**

A

Abi-həyat – dirlik suyu

B

Badə – şərab
Baxqan kəsə (özbəkcə) – baxan adam
Bədri-tamam – bütöv ay, on dörd gecəlik ay
(məc. gözəl üz)
Bərq – ildırım, işıq
Bəsirət əhli – gözüaçıq adam
Bülənd – uca, yüksək

Ç

Çeşm – göz

D

Dəmət – gül dəstəsi
Dərgah (dərgəh) – astana
Dəst – əl
Didə – göz

E

Eyma – işarə (qaş, gözlə)

Ə

Əbr – bulud
Ədəm – heçlik, yoxluq
Əflak – fələklər
Ətvar – qalıq, naz-qəmzə

F

Fəraq – ayrılıq
Filməsəl – məsələn (burada – sanki, elə bil ki)

G

Giryan – ağlar
Gülgün – al, qırmızı

H

Həmnişin – bir yerdə oturub duran, yoldaş, dost
Hərəkatu rəviş – davranış
Həsb-hal – hal-əhval

X

Xilaf – əksinə, tərsinə
Xislət – insan təbiəti
Xoşnud – razı qalmaq, sevinmək
Xubluq – gözəllik, yaxşılıq
Xud – özü
Xuram – nazlı-nazlı yerimək

I

Ibn – oğul
Iqtiza – icab, mümkünlük, zərurət
Isar – malını səxavətlə vermək, qurban etmək

K

Kərim – mərhəmətli, səxavətli (burada, bəyənilmiş)
Kişvər – ölkə
Kövkəb – ulduz
Kur – kor

Q

Qitə – şeir forması

L

Laf – yalan
Ləb – dodaq
Ləfz – söz, danışıq

M

Mehr – məhəbbət
Mədh – tərif
Məxmur – xumarlanmış
Məniyyət – müşayiət edənlər
Mətlə – şerin ilk misrası
Miknət – var, dövlət
Mur – qarışqa
Mühəqqər – həqir, zəif, aciz
Müşairə – şeirləşmə

N

Ney – tütək
Nəzzarə – tamaşa

P

Peyda – olmaq, görünmək, tapılmaq
Pəmbə – pambıq

Pəyam – məktub, sifariş
Puş (puşak) – geyim

R

Rastguluq – doğruluq, doğru danışmaq
Rəncur – xəstə, naxoş
Ruxsar – üz, yanaq
Ruj – üz

S

Sabitqədəm – səbatlı, dönməz, möhkəm adam
Sanmağay (özbəkcə) – sanmayın
Sarban – sarvan
Səbz – yaşıl
Səhi-qəd – uca boy, düz qamət
Sərapa – başdan-ayağa
Sərgəştə – avara, sərgərdən
Sirişk – göz yaşı
Sitəmkar – zülmkar

Ş

Şəmayil – surət, camal

T

Tanq-imas (özbəkcə) – eyb olmaz
Tar – qaranlıq
Tarac – qarət, talan
Təmas – toxunmaq
Tən – bədən, can
Tənbur – çalğı aləti
Tiğ – qılınc
Tilbə könlim (özbəkcə) – dəli könlüm
Türbə – qəbir, məzar
Türfə – qəribə
Türreyi-zülf – hörük, saçın qatları

Ü

Ürfan – elm, bilik

V

Vəhm – qorxu
Vəsf – tərif

Z

Zar – ağlar
Zərd – sarı
Zində – diri

Milli Kitabxana

MİRZƏ ŞƏFİ VAZEH

# NƏĞMƏLƏR

"ŞƏRQ-QƏRB"

BAKI-2004

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Zümrüd Paşayeva*

Yığılmağa verilmişdir 17.07.2004.
Çapa imzalanmışdır 21.12.2004.
Formatı 60x90 $^{1}/_{32}$. Fiziki çap vərəqi 3.
Ofset çap üsulu. Tirajı 25000. Sifariş 247.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.